*Ramiz QULİYEV - 55*

# Ənənələrin bənzərsiz təcəssümü

*Bəxtiyar VAHABZADƏ, xalq şairi*

**Milli musiqi xəzinəmiz hesab edilən muğamların 200-300 il bundan öncə necə olduğunu mən deyə bilmərəm. Amma muğamın böyük ifaçılarının adlarını, yəni müğənnilərin və yaxud gözəl tarzənlərin adlarını eşidirik. Məsələn, bizim tarixdə qalan ilk tarzən Sadıqcan olub. Sadıqcana qədər tarı dizin üstündə çalıblar. Onu dizin üstündən sinəyə qaldıran Sadıqcan olub. Doğrudur, Sadıqcanın mənim ən çox sevdiyim muğamı - "Segah"ı necə çaldığını eşitməmişəm. Mənim ilk eşitdiyim görkəmli tarzən Qurban Pirimov, muğam ifaçıları içərisində ona Qurban əmi deyərdilər Qurban əminin muğam ifasını mən dinləmişəm. Deməliyəm ki, eyni muğamı Qurban əmi bir cür çalır, Hacı bir cür çalır, Gəncədə bir Zərif adlı tarzən olubdur o, bir cür çalır, Əhsən Dadaşov başqa cür çalır, Ramiz Quliyev isə tamam başqa cürə çalır. Bu belə də olmalıdır. Bunun belə olması muğamın inkişafıdır. Biz hər şeyə sabit, durğun halda baxa bilmərik. Bu, bir də ondan irəli gəlir ki, muğam çox mürəkkəb musiqidir, çoxşaxəlidir, çoxmətləblidir. Ona görə də muğam dinləyən şəxs onu özü başa düşdüyü kimi anlayır və hər çalan da onu özü başa düşdüyü kimi çalır. Muğamda improvizasiya imkanları çoxdur.**



Bu gün haqqında danışacağım Ramiz Quliyevin muğam ifaçılığını götürək. Mən inanıram ki, Ramiz kədərli vaxtında eyni muğamı, məsələn, "Zabul-Segah"ı bir cür çalır, əhvalının duru çağında bir başqa cür çalır, əhvalı özünə də məlum olmayan halda tamamilə bir başqa formada çalır. İmprovizasiya edir. Çünki muğam nota "girmir", düzdür onu bizim bəzi bəstəkarlarımız nota salıblar. Amma o, mən dediyim muğam deyil. Mən ayrı cür istəyirəm muğamı. Mən öz təəssüratımı deyirəm. Ona görə ki, mən musiqişünas deyiləm. Musiqişünas olmadığım üçün mənim haqqım yoxdur ki, musiqi haqqında nəzəriyyə açam. Amma buna baxmayaraq, mən muğamlar haqqında böyük poema yazmışam və poemada mən öz təəssüratımı ifadə etmişəm. Məncə "Rast", "Çahargah", "Segah", "Şur" nədir? Bu dörd muğam haqda yazmışam. Ola bilsin ki, məndən sonra gələn şair onları başqa cür yazsın. Ola bilər. Buna görə də konkret olaraq, sualı belə qoyaq - Mən Ramiz Quliyevin ifasında nəyi daha çox sevirəm? Bunu çox düşündüm, nəhayət, tapdım ki, mən əsasən Ramizin "Segah" ını dinləyəndə ağlayıram. Ümumiyyətlə, mən çox kövrək adamam. Məsələn, Bethovenin "Aylı sonata"sı. Onu dinləyəndə, ağlayıram. Əksər hallarda Şubertin "Gecə serenadası"na da qulaq asanda kövrəlirəm.

Ramiz də məni ağladır... Bu ağlamaq dərdin çoxluğundan, ağrının çoxluğundan olan ağrı deyil. Bu, sevincdən də olan ağrı deyil. Bu, dünyanı dərk etməkdəndir. Ona görə ki, Ramiz Quliyev çalmamışdan əvvəl və çalanda nəyi ifa etdiyini bilir. O, əsəri özünün malı edir, sonra çalır. Özünün dərdi edir, sonra çalır. Özünün ağrısına döndərib, çalır... Bu mühüm məsələdir. Ona görə də o musiqi mənə çatır, deyim necə çatır - Ramizin çalğısında, yəni musiqi cümlələrində mürəkkəblik yoxdur. Ümumiyyətlə, muğam mürəkkəbdir, amma Ramiz Quliyev o mürəkkəbliyi sadələşdirməyi bacarır. O, müğamı aydınlaşdırır. Sadələşdirmək bir şeydir, bəsitləşdirmək isə tamam başqa şey. Ramiz bəsitləşdirmir, o, sadələşdirir: sənə yedirir. Musiqi cümləsini, muğamın cümləsini başlayanda, mən bütün varlığımla onun ahənginə dalıb, sonunu gözləyirəm, yəni cümlənin axınını gözləyirəm. Fikir verirsinizsə, Ramiz cümlənin axınını özünəməxsus tərzdə qurtarır. Heç kəs muğamı o tərzdə qurtarmır. Yalnız Ramiz ifasının sonluğunu "özü kimi" qurtarır. Çünki Ramiz Quliyev heç kimi təqlid etmir, özünü təqlid edir, özünü çalır.

Ramizin ifasında "Zabul-Segah" muğamına nəzər salaq. O, bu muğamı özünün dərdi edib, iç ağrısına döndərib, sonra çalır. Ona görə də mənim üçün onun ifası aydındır. Onun üçün də mənə bu ifa büllur kimi aydındır, görürəm ki, bu çalğıda artıq olan şey yoxdur.

Bəzən ifaçılar texnikaya çox aludə olurlar.Çalğıda texnika, ümumiyyətlə, sənətin, bir növ, düşmənidir. Texnika şablondur. Texnikanı mənimsə, amma texnikaya ürəyini də birləşdir. Qoy texnika ürəkdən çıxsın, ürəkdən gəlsin.

Mən neçə ilin şairiyəm. Elə ki, bir fikir, bir hiss məni tutur, onu yazanda, yazı prosesində görürəm ki, texnika ilə yazıram. Bildiyim qayda-qanunla yazıram, bilirəm - köçürməyəcəyəm.. Amma bir də var cilovu buraxıram, hisslər aparıb gedir, özü də qarşıya qoyduğum məqsədə doğru getmirəm. Məqsəddən məqsəd doğur, budaqdan budaq doğur: gəlib başqa bir nəticə alınır. Bax, budur əsl sənət.

Mən, dostum, sənə Ramiz Quliyev, yəni "yev" demək istəmirəm; "zadə" də bizim deyil. Mən deyərdim, Ramiz Qulubəylinin ifasında bunları görürəm. Ona görə də mən 20 yanvarda məhv edilmiş cavanlarımıza həsr etdiyim "Şəhidlər" poemasını yazarkən bir yerində ricət çıxdı. Yəni, bu planda yox idi. Ricət çıxdı ki, bax, bu, zamanca deyişən muğamda yeni bir pərdə yaranmalıdır. Bu bizim ümumi dərdimizdir. Fikir verin, deyir ki,

**Qəlbimi boşaltmır çəkdiyim ah da,**
**Nəğmədə hər xalın kökü var yəqin,**
**Şəhid fəryadından ulu "Segah"da**
**Təzə bir guşə də açılar yəqin.**

Mən belə güman elədim ki, bu hadisədən sonra bizim köhnə "Segah"ımızda təzə bir guşə yaranacaqdır. Mən bunu hissimlə deyirəm və ondan sonra üzümü tuturam Ramizə:

**Ramiz, bas bağrına sən qoca tarı,**
**Bu təzə guşədə çal, sənə qurban.**

Təzə guşədə muğamı təzələ. Çünki sən də çəkdin o dərdi mənim kimi... Necə ola bilər ki, sənətkar şəhidlərin dərdini çəkməsin. Sən də onu çəkdin, tarında yeni xal yarandı -

**Şəhidlər qanına boyanan səsi**
**Zabul-Segahına sal sənə qurban.**
**Pərdələr qoy təzə güllər bitirsin,**
**Şəhid anasına təsəlli versin.**
**Haqqın fəryadını dilə gətirsin,**
**Təzə yaratdığın xal sənə qurban!..**
**... Təzə guşədəki ah-amanların,**
**Qorxuram hər xalı yoğrula qandan.**
**Qorxuram, çanağı partlaya tarın,**
**Bu təzə guşənin hay-harayından.**

Mən qorxuram ki,"tarın çanağı partlaya, həmin çaldığın guşənin hay-harayından" - əsas, bax, budu. Ramiz musiqi sənətkarı kimi, mən də söz sənətkarı kimi eyni şeyi demişik. Mən əminəm ki, 20 yanvar hadisəsindən əvvəl çaldığı "Zabul-Secah"ı Ramiz o hadisədən sonra başqa cür çalıb. O, bunu hiss eləməz. Heç mən öz dərdimi yazanda hiss eləyirdim ki, belə sözlər deyəcəyəm? O da hiss eləməz...

Ramizin bir uğurlu, gözəl cəhəti də var ki, o, qərb bəstəkarlarının əsərlərini özününküləşdirir. Tarda qərb musiqisini çalmaq. Bu, təzə hadisədir. Ramizə qədər Hacı Məmmədov da çalmışdı. Amma Ramizin özünəməxsus yolu var və mən bunu alqışlayıram. Azərbaycan dilində Qərbin, Avropanın musiqisini səsləndirmək... Buna görə də ona təşəkkürümü bildirirəm.

Mən sənət dostuma, böyük sənətkarımıza uğurlar arzulayıram. Daha böyük yeniliklər diləyirəm. Arzulayıram ki, özündən sonra oğlu Əyyub da atasının yolu ilə getsin.

*Bakı,*
*aprel, 2002-ci il*